# GÖZƏLLİYİN SÖZ BAĞINDA

## *Adil Ağanın "Sözüm bitmədi" (şeirlər və poetik esselər) kitabı haqqında qeydlərim*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Adil Ağanı şəxsi tanışlığım olmasa da, dövrü mətbuatda çap olunan publisist yazılarından və şeirlərindən kifayət qədər tanıyıram. Zənnimcə, söz adamını elə sözündən tanımaq daha üstündür. Məni cənub bölgəsi ilə bağlayan qırılmaz əlaqələrim var. Elə özüm əslən Lənkəranın Gərmətük kəndindənəm. Bakıda doğulub böyüsəm də doğma yerlərə tez-tez yolum düşür. Astarada da mənim tanıdığım və məni tanıyanlar çoxdur. 80 illik yubileyimin Astaradakı ədəbi dostlarım tərəfindən qeyd olunması ən xoş xatirə kimi yaddaşımdadır.

Bu günlərdə dostum Əli Rza Xələfli Adil Ağanın yeni kitabı ilə məni tanış elədi. Mən kitablara da canlı varlıq kimi baxıram. Hər vaxt mənə elə gəlir ki, kitablar öz səhifələrində insanın hisslərini və həyəcanlarını yaşadır. Sözü bilən hər kəs bu hissləri, bu duyğuları məmnunluqla varlığına çəkir.

"Sözüm bitmədi" kitabı Adil Ağanın kifayət qədər səriştəli, orijinal və yetkin poetik nəfəsə sahib olduğunun göstəricisidir.

Həyat bəzən bizə yeknəsək görünə bilər. Ancaq həyatın hər bir anı orijinaldır, təzədir. Şairlər bu orijinallığı, bu təzəliyi sözə gətirəndə, ona poetik nəfəs verəndə sənət yaranır. Açığı, Adil Ağanın şeirlərinin insanı həyata çağıran nəfəsini hiss etdikcə daxilimdə bir məmnunluq duydum; axı həyat gözəldir. Birinci şərt onu yaşaya bilməkdir. Əsl poeziya (təkcə poeziya yox, digər sənət sahələri də) isə insanı həyata bağlamaq məğzi ilə qiymətlidir. Adil Ağanın poetik lövhələrində insanı həyata çağıran motivlər kifayət qədər güclüdür. Onun "Yerlə göy arasında" şeiri diqqətimi çəkir. Maraqlıdır, axı həyat elə yerlə göy arasındadır. İlk baxışdan mövzu çox sərhədsiz görünür. Amma Adil onu yığcam, poetik lövhədə bütün rəngarəngliyi ilə göstərə bilir:

Hardasan əzizim, deyirdin,
göylər qədər sevirəm səni,
Vücudum yerdə ikən niyə
göylərə gedirdin?!
Deməк, göylər qədər uzaqsan
mənə...
Dalğalar sahilə həsrətlə qovuşur,
bir andaca ayrılan kimi,
Niyə əhdimiz sovuşur,
külək yarpaqları aparan kimi.
...Dinləyirsən mahnını, anla,
sözlərin fərqinə var!
Qulaq as müğənni qıza, yadda saxla,
hicran qapısın bağla!
"Kaman ayrılıq nəğməsin çalır -
gecələrin pıçıltısında,
Qəlbim odlarda alışıb yanır
yerlə göy arasında...

Redaktor və ön sözün müəllifi: ***Əli Rza Xələfli, şair-publisist, Beynəlxalq Rəsul Rza mükafatı laureatı***

Rəyçi və son sözün müəllifi: ***Şəddat Cəfərov, fəlsəfə doktoru, yazıçı-publisist***

Adil Ağa ***(Əhmədov Adil Qurban oğlu)*** "Sözüm bitmədi" (şeirlər və poetik esselər). Bakı, 2025, "Gənclik" nəşriyyatı, 160 səhifə.

*Adil Ağanın "Sözüm bitmədi" şeirlər və poetik esselər kitabına son illərdə yazdığı poetik əsərləri toplanmışdır. Müəllif daha əvvəl nəşr olunmuş "Sözüm ürəkdə qaldı" kitabından bəzi seçmələri də bu topluya daxil etmişdir. Kitaba toplanmış yeni şeirlərdəki 44 günlük Vətən müharibəsindən sonrakı qələbə əhvalı da oxucu ruhuna təsir edir, hər kəsdə gələcəyə, həyata nikbin duyğular aşılayır. Vətən sevgisi, ədalətin, haqqın zəfər çalmasına inam, saf eşqin tərənnümü, mənəvi-əxlaqi dəyərlər Adil Ağanın poetik yaradıcılığının əsas qayəsidir.*




Bu şeiri müəllif təzəlikcə - 01.09.2025 tarixində qələmə alıb. Adil 75 illiyinə yaxınlaşır. Ancaq bu şeir onun poetik nəfəsinin nə qədər dolğun və cavan olduğunun göstəricisidir. Bu şeirdəki ayrı-ayrı epizodik görünən obrazları bir-birinin yanına düzsək, həyatın maraqlı mənzərəsi gözlərimiz önündə canlanar. Yer, göy, əziz insan, dalğalar, kaman, külək, mahnı, həsrət, od, alov, yanma duyğuları... ilk baxışda bir-birindən uzaq görünsə də poetik düşüncənin harmoniyasında mahir bir rəssam əli ilə çəkilmiş mənzərənin ahəngini yaradır.

Adil Ağanın istəkləri, arzuları hümanizm duyğuları üzərində köklənib. O, insanlığa məmnun həyat diləyir. Onun antiterror əməliyyatından sonra yazdığı poetik essesi var: "Bayram olsun" - adlandırıb. Zənnimcə, bir şairin insanlığa arzularını duymaq üçün onun bu poetik lövhəsini oxumaq bəs eləyər:

Yer üzü laləzara, gülzara dönsün,
sevən qəlblərdə qalmasın nisgil,
küsənlər barış etsin, sevinsin.
Hər evə, hər obaya bayram gəlsin,
xoş ovqatla seyran gəlsin,
rəzilliklə rəzalətin ipi kəsilsin.
Kainat insanlığa məhəbbət dolu
dəstə-dəstə gül bağlasın,
yaşıl qumaşla çələng hörsün...
Heç vaxt yorulmayan günəşimiz
solmasın, şəfəq saçsın,
xəzan yeli əsəcək, təbii,
açılan çiçəklərimiz solmasın...
Zəfər ölkəmiz ilk bahar çiçəyitək
açılsın,
sevib sevilənlərin qəlbinə
sevgi, məhəbbət dolsun,
həyat eşqi daim alışıb yansın.

Müəllif poeziyanın qədim bir ənənəsinə sadiqliyini bu şeirdə məharətlə qoruyu salayıb. Axı hər şey müəllifin yaşam yolunun varlıq aləminin bir parçasıdır. Mən oxuduğum misralarda Adilin antiterror əməliyyatından sonrakı duyğulanmalarını çox aydın hiss etdim. O, həmin günlərdə hansı hissləri keçirib? Əlbəttə, antiterror əməliyyatının qələbəsindən sonra rahat nəfəs alıb, sevinib, məmnunluq hissi daşıyıb. Amma o, çox istəyir ki, bundan sonra müharibə olmasın, savaş olmasın, insanların qəlbində həyat eşqi çağlasın. Əmin-amanlıq elə həyatın mənası deyilmi? Mən Adilin şeirlərində ilkin müşahidə etdiyim bir çaları ayrıca qeyd edərdim. Onun qəlbi cəmiyyət üçün açıqdı. Qərəzə, kinə yer yoxdur onun dünyasında. Elə ona görə də əbədi sülhün nə demək olduğunu özünün poetik səsi ilə cəmiyyətə çatdırmaq istəyir. Bu da insanlığa doğma olanın istəkləridir:

Mələklər yer üzünə ensin,
muştuluğla xoş müjdələr,
nəmər pay gətirsin.
Şəhid qanı tökülmüş torpaqlarımız
Novruz xonçası tək bəzənsin
gülsün...
Şəhidlər ölməzlər ki
ruhları uçar səmalarda,
sadiq dostu tək
Allah dərgəhində,
qərarlaşar müqəddəs məqamlarda.
Bu an qollarımız tərpənər,
əllərimiz qalxar göylərə
ürəkdən ağız açıb deyərik:
"Şükürlər olsun sənə,
ey mənim Allahım,
şəhidləri mələk simasında
yetirirsən bizlərə..."



Müəllifin şeirin sonunda şəhidləri bir daha xatırlatması da təsadüfi deyil. Qələbə qansız olmur. Amma cəmiyyətin mənəvi harmoniyası onda pozular ki, qələbə naminə canını qurban verənlərin qanları yaddan çıxa, kimlərinsə nəzərində şəhid qanının qırmızılığı rəngini dəyişə. Bax, bu, cəmiyyətin gələcək taleyi üçün çox ciddi narahatlıq doğuran bir məsələdir.

Adil Ağanın "Sözüm bitmədi" kitabı hər bir duyğusal, sözə mənəvi hazırlığı olan oxucu üçün maraq mənbəyi olacaq. Kitabın səhifələrində yer almış şeirlər lirik ovqatı ilə söz sevdalısı oxuculara sonsuz mənəvi zövq bəxş edəcək.

Adil Ağa dilə həssas yanaşması ilə diqqəti cəlb edir. Onun poetik ovqatında bir sərbəstlik var. Ancaq bu sərbəstlik nizamsızlığa aparıb çıxarmır. Hər bir sözün sadəliyi, təmizliyi, şairin ruhundakı ahəngi tamamlayır.

"Sözüm bitmədi" kitabı müəllifin poetik yaradıcılığının bundan sonra da davam edəcəyinə inam yaradır.

***26 noyabr 2025.***